

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 120 (21.530)

*1 iyul 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 30 iyun tarixli Sərəncamı ilə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin mühafizəsində, beynəlxalq əhəmiyyətli kütləvi tədbirlər zamanı ictimai təhlükəsizliyin təmin edilməsində və xüsusi tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşı təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları da vardır.

**İbrahimov Nəriman Məhəmməd oğlu – polis mayoru**

**Mirzəyev Səbuhi Lazım oğlu – polis kapitanı**

“Vətən uğrunda” medalı ilə

**Şıxəliyev Şıxəli Qəzənfər oğlu – polis polkovnik-leytenantı**

“İgidliyə görə” medalı ilə təltif edilmişlər.

## Gülüstan türbəsi bərpa olunmuşdur





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli Sərəncamına əsasən Culfa rayonu ərazisində yerləşən dünya əhəmiyyətli Gülüstan türbəsi elmi və tarixi əsaslarla bərpa olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək demişdir: Hər bir xalqın memarlıq sənəti özündə o xalqın həyat tərzini, sənətkarlıq xüsusiyyətlərini, adət-ənənələrini, inanc və dəyərlərini yaşadır. Xalqımızın milli dəyərlərini əks etdirən Azərbaycan memarlıq məktəbi də bu ənənələri yaşatmaqla uzun bir dövr ərzində formalaşmışdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Azərbaycan memarlıq sənətinin qədim və zəngin ənənələri vardır. Memarlarımızın yaratdığı daş salnamələr – şəhərlər, körpülər, abidələr xalqımızın mənəvi zənginliyini əks etdirməklə yanaşı, dünya mədəniyyəti tarixinin parlaq səhifələrini təşkil edir”.***

Qeyd olunmuşdur ki, Naxçıvanda da memarlıq sənəti özünəməxsus inkişaf yolu keçmişdir. Burada formalaşan memarlıq sənəti on ikinci əsrdə özünün inkişaf mərhələsinə qədəm qoymuşdur. Naxçıvan memarlıq məktəbinin formalaşmasında bu dövrdə yaşayıb-yaradan Əcəmi Əbubəkr oğlu Naxçıvani mühüm rol oynamışdır. Bu gün də Əcəmi Naxçıvani sənəti memarlıq sahəsində mühüm bir istiqamət və məktəb kimi qəbul olunur. Onun yaratdığı Yusif Küseyir oğlu və Möminə xatın türbələri xatirə memarlığının ən uğurlu nümunələridir. Açılışına toplaşdığımız Gülüstan türbəsi də on ikinci əsr Azərbaycan xatirə memarlığının dəyərli və dünya əhəmiyyətli abidəsi olmaqla Əcəmi memarlıq məktəbinin yadigarıdır.

Ali Məclisin Sədri demişdir: Gülüstan türbəsinin bərpa edilməsi xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir. Gülüstan türbəsi ölkəmizin tarixi abidələri içərisində memarlıq həllinə və həndəsi ornamentlərinə görə seçilir. Buna görə də türbənin bərpası zamanı hər bir detala xüsusi diqqət yetirilmiş, abidənin orijinallığı qorunub saxlanmışdır. Beləliklə, Gülüstan türbəsinə ikinci həyat verilmişdir. Aid təşkilatlar türbənin qorunaraq gələcək nəsillərə çatdırılması qayğısına qalmalı, “Gülüstan türbəsi” tədqiqat qrupu başlanan işləri davam etdirməlidir. Mədəniyyət və Turizm Nazirliyi və Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi “Gülüstan” Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən digər tarixi abidələrin də tədqiqi, onlar haqqında tarixi materialların əldə olunması üçün səylərini artırmalı, birgə tədbirlər planı hazırlamalıdırlar.



“Abidələrimiz təkcə tarixilik baxımından tədqiq olunmamalı, həm də müasir memarlıq sənətinin inkişafı baxımından öyrənilməlidir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, Şəhərsalma və Arxitektura Komitəsi və Memarlar Birliyi Naxçıvan memarlıq ənənələrini dərindən öyrənməli, abadlaşdırma və quruculuq işlərində bu məktəbin ən yaxşı nümunələrinin davam etdirilməsinə, onların tarixiliklə müasirliyin vəhdəti halında tətbiqinə üstünlük verməlidirlər. Təhsil Nazirliyi, ali və orta ixtisas təhsili müəssisələri tələbə və şagirdlərin Gülüstan türbəsinə ekskursiyasını təşkil etməlidirlər. Naxçıvan Dövlət Universiteti Memarlıq ixtisası üzrə kadr hazırlığında Naxçıvan memarlıq məktəbi ənənələrinin tədrisinə geniş yer ayırmalı, təcrübi dərslərin tarixi abidələrdə, eləcə də Gülüstan türbəsində keçirilməsini təmin etməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu “Gülüstan türbəsi” kitabını hazırlamalı, tarixi abidələrlə bağlı maarifləndirmə işini gücləndirməlidir.

Ali Məclisin Sədri Gülüstan türbəsinin bərpasında əməyi olanların hamısına təşəkkür etmiş və türbənin açılışı münasibətilə təbriklərini çatdırmışdır.

“Gülüstan türbəsi” tədqiqat qrupunun rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Fəxrəddin Səfərli çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında təbii qüvvələrin təsirindən dağıntılara və aşınmalara məruz qalmış tarixi abidələrdən 60-dan çoxu bərpa və təmir olunaraq xalqa qaytarılmışdır. Gülüstan türbəsi də uzun müddət baxımsız qalaraq unudulmuş, buna görə də təbii qüvvələrin təsirindən güclü aşınmalara məruz qalmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 oktyabr 2015-ci ildə imzaladığı “Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında” Sərəncamı bu möhtəşəm abidənin bərpası və tədqiqi üçün geniş imkanlar yaratdı. Sərəncama əsasən yaradılan “Gülüstan türbəsi” tədqiqat qrupu türbənin tarixi ilə əlaqədar yeni faktlar aşkara çıxarmışdır. Tədqiqat qrupu türbənin tarixi, memarlıq formaları, ətraf ərazinin arxeologiyası, etnoqrafiyası, tarix və memarlıq abidələri haqqında məlumatlar toplamış, onlar əsasında türbə və ətraf ərazilərlə əlaqədar konkret elmi nəticəyə gəlmişdir. Azərbaycanın qülləvari türbələri sırasına daxil olan və özünəməxsus xüsusiyyətləri ilə seçilən türbə XVI yüzilliyə aid “Çaldıran səfəri ruznaməsi”ndə, XVII əsr türk səyyahı Övliya Çələbinin “Səyahətnaməsi”ndə “Kəsik günbəz”, 1815-ci ildə Culfada olmuş Mirzə Saleh Şirazinin “Səfərnamə”sində isə “tənha bürc” kimi xatırlanır. Fəxrəddin Səfərli tariximizin hərtərəfli araşdırılmasına və zənginləşdirilməsinə, ərazidəki tarix və mədəniyyət abidələrinin bərpası, tədqiqi və təbliğinə göstərdiyi diqqət və qayğıya görə elm adamları adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Dövlət Universitetinin “Memarlıq” kafedrasının müdiri, memarlıq üzrə fəlsəfə doktoru Gülnarə Qənbərova demişdir ki, Naxçıvan qədim tarixi ilə yanaşı, burada yaşayan insanların yaratdıqları memarlıq abidələrilə də zəngindir. Bu torpaqda Əcəmi Əbubəkr oğlu Naxçıvani, Əhməd Əyyub oğlu əl-Hafiz Naxçıvani, Xacə Cəmaləddin və başqaları kimi görkəmli memarlar yetişmişdir. Onların yaratdığı memarlıq əsərləri müasir dövrdə də öz əhəmiyyətini itirməmişdir. Belə abidələrdən biri də XII əsrə aid olan Gülüstan türbəsidir. Türbədə Naxçıvan memarlıq məktəbinin üslub və kompozisiya xüsusiyyətləri aydın görünür. Bu gün muxtar respublikada tarixi memarlıq abidələrinin bərpası ilə yanaşı, Naxçıvan şəhəri və rayonlarında müasir dövr memarlığının inkişafına da çox önəm verilir, keçmişlə müasir memarlıq arasında sintez yaradılır. Muxtar respublikada gənc memarların hazırlanmasına da diqqət yetirilir, Naxçıvan Dövlət Universitetində “Memarlıq” ixtisası üzrə kadrlar hazırlanır, “Naxçıvan memarlığı” dərsi tədris olunur.

Sonra Ali Məclisin Sədri və tədbir iştirakçıları Gülüstan türbəsinə baxmışlar.

Məlumat verilmişdir ki, Gülüstan türbəsi dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən biridir. Memarlıq-konstruktiv quruluşuna görə türbə tipli digər memarlıq abidələrindən fərqlənən Gülüstan türbəsi orta əsr Azərbaycan memarlıq abidələri içərisində özünəməxsus yer tutur. Gülüstan türbəsinin sərdabəsi kürsülük adlanan yerüstü hissədə yerləşir. Kürsülük xaricdən kəsik piramida, daxildən isə silindrik quruluşa malikdir. Planda kvadrat olan kəsik piramida yuxarıda düzgün onikibucaqlıya çevrilir. Onun üzərində isə onikiüzlü üst kamera yerləşir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə və dekorativ tağlarla bəzədilmişdir. Naxçıvan memarlıq məktəbinə məxsus digər türbələrdə olduğu kimi, Gülüstan türbəsində də taxçaların içərisi incə həndəsi ornamentlərlə örtülmüşdür.

Gülüstan türbəsi ətrafındakı abidələrdən əldə olunmuş arxeoloji materiallar, xüsusən də keramika nümunələri, tikili qalıqları istər yaşayış yerinin tarixinin müəyyənləşdirilməsi, istərsə də türbə ilə bağlı elmi araşdırmaların daha dərindən aparılması baxımından mühüm əhəmiyyət kəsb edir. Türbə öz zərifliyi, incə memarlıq üslubu və xüsusiyyətləri ilə bu gün olduğu kimi, gələcəkdə də dəyərini qoruyub saxlayacaqdır. Abidənin yerləşdiyi ərazinin tarixi və mədəni əhəmiyyəti nəzərə alınaraq burada “Gülüstan” Tarix-Mədəniyyət Qoruğu yaradılmışdır.

Ali Məclisin Sədri demişdir ki, gələcək keçmişin üzərində qurulmalıdır. Keçmiş isə tarixi abidələrdə yaşayır. Naxçıvanda vaxtilə əcdadlarımız tərəfindən möhtəşəm abidələr yaradılmışdır. Bu abidələr xalqımızın daşlarda yaşayan tarixi və pasportudur. Bu mənada hər bir abidənin tədqiqi və bərpası tarixin

*Ardı 2-ci səhifədə*

bir dövrünün və xalqımızın qədim həyat tərzinin öyrənilməsi, üzə çıxarılması deməkdir. Ona görə də tarixi abidələrin tədqiqi sahəsində işlər bundan sonra da davam etdirilməli, elmi məqalələr, kitablar yazılmalı, rəssamlar, şair və yazıçılar öz əsərlərində tarixi abidələrə müraciət etməlidirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Əliyev qədim tariximizin yaşadılması və zəngin mədəni irsimizin qorunub saxlanılması sahəsində həyata keçirilən tədbirlərə görə muxtar respublika ziyalıları adından minnətdarlıq etmişlər.

Ali Məclisin Sədri tədbir iştirakçıları ilə birgə xatirə şəkli çəkdirmişdir.

Abidənin ətrafında da abadlıq işləri aparılmış, işçilər üçün inzibati bina tikilmiş, yaşıllıqlar salınmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Araz çayında sahilbərkitmə işləri aparılmışdır





Muxtar respublikada həyata keçirilən meliorativ tədbirlər sırasında sahilbərkitmə işləri xüsusi yer tutur. Çayətrafı torpaqların yuyulmasının qarşısının alınması və şoranlaşmış torpaqların münbitləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər son illər geniş vüsət almışdır.

İyunun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Araz çayında aparılan sahilbərkitmə işləri ilə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, aparılmış sahilbərkitmə işləri nəticəsində Araz çayı boyunca mövcud olan yaşayış məntəqələrinin, 1000 hektarlarla əkin sahələrinin, dəmir yollarının, nasos stansiyalarının və digər əhəmiyyətli obyektlərin sel sularından mühafizəsi təmin edilmiş, ərazilərin yuyulmasının qarşısı alınmışdır. Azərbaycan Respublikası ilə İslam İnkişaf Bankı arasında 2011-ci ildə bağlanmış kredit sazişinə əsasən "Naxçıvan Muxtar Respublikasında selə qarşı tədbirlər, suvarılan ərazilərin modernləşdirilməsi və genişləndirilməsi" layihəsi çərçivəsində Şərur rayonunda 14,3, Sədərək rayonunda 6,8, Culfa rayonunda 4,8, Ordubad rayonunda 5 kilometr, Kəngərli rayonu ərazisində isə 400 metr məsafədə sahilbərkitmə işləri görülmüşdür. Bundan başqa, Gülüstan türbəsinin yerləşdiyi ərazidə Araz çayı sahili boyunca 1360 metr daşla sahilbərkitmə işi aparılmış, 500 metr torpaq bənd salınmışdır. Araz çayı sahili boyunca daşla sahilbərkitmə işlərinin bundan sonra da davam etdirilməsi nəzərdə tutulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sahilbərkitmə işlərinin aparılmasında əməyi olanlara təşəkkür edərək demişdir: Araz çayında sahilbərkitmə işlərinin aparılması muxtar respublika üçün vacib tədbirlərdəndir. Çünki əvvəllər muxtar respublikanın Araz çayının sahilində yerləşən torpaqları sel sularının təsiri altında yuyulurdu. Bu da müəyyən çətinliklər yaradır, yaşayış məntəqələri və əkin sahələri sel suları altında qalır, ərazilərdə şoranlaşma artırdı. Lakin 2003-cü ildən etibarən muxtar respublikada sahilbərkitmə işlərinin aparılmasına başlanıldı. Sonrakı dövrdə isə müxtəlif layihələr çərçivəsində sahilbərkitmə işləri davam etdirildi. Artıq muxtar respublikanın Araz çayı boyunca yerləşən sərhədlərində 55 kilometr məsafədə sahilbərkitmə işləri aparılmış, yaşayış məntəqələrinin, ərazilərin sel təhlükəsinin və yuyulmasının qarşısı alınmışdır.

Ali Məclisin Sədri demişdir: Sahilbərkitmə çətin və məsuliyyətli işdir. Artıq muxtar respublikada bu işləri həyata keçirən kollektiv formalaşmışdır. Ona görə də gələcəkdə də sahilbərkitmə işlərinin davam etdirilməsi nəzərdə tutulmuş, yeni layihələr hazırlanmışdır. Sahilbərkitmə işlərinin aparılması torpaqların yuyulmasının və şoranlaşmanın qarşısını almaqla yanaşı, həm də ərazinin zəngin flora və faunasının qorunmasına da imkan verir. Bu tədbirlərin nəticəsidir ki, muxtar respublikada "Arazboyu" Dövlət Təbiət Yasaqlığı yaradılmış, bu ərazilərin bitki və heyvanlar aləminin mühafizəsi təmin edilmiş, vaxtilə su altında qalan torpaqlardan səmərəli istifadə olunmasına başlanılmışdır.

Ali Məclisin Sədri sahilbərkitmə işlərinin aparılmasında əməyi olanları qiymətli hədiyyələrlə mükafatlandırmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## *"Bələdiyyə orqanlarında qanunvericiliyin tətbiqi ilə bağlı görülən işlər"* mövzusunda tədbir keçirilib

***Babək rayonunda "Bələdiyyə orqanlarında qanunvericiliyin tətbiqi ilə bağlı görülən işlər" mövzusunda keçirilən tədbiri rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açıb.***

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev məruzə ilə çıxış edib. Bildirilib ki, muxtar respublikada aparılan hərtərəfli abadlıq və quruculuq işləri çərçivəsində bələdiyyələrin də müasir iş şəraiti ilə təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada fəaliyyət göstərən bələdiyyələrin əksəriyyəti müasir standartlara uyğun tikilən şəhər, qəsəbə və kənd mərkəzlərində müvafiq iş otaqları ilə təmin olunublar.



Qeyd olunub ki, 15 ildən çox müddət keçməsinə baxmayaraq, bu gün hələ də bələdiyyələrin istər kadrlarla iş, istərsə də kargüzarlıq sahəsində işləri günün tələbləri səviyyəsində deyil. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrə metodik köməkliyin göstərilməsi və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəli təşkili istiqamətində işlər mütəmadi davam etdirilir. Belə ki, istər kargüzarlıq, istərsə də bələdiyyə torpaqlarından səmərəli istifadə olunması və bu sahədə hüquq pozuntularının baş verməməsi xüsusilə diqqət mərkəzində saxlanılıb, bələdiyyələrə zəruri metodik köməklik göstərilib. Bu gün bələdiyyə mülkiyyətində olan torpaqlar Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə, "Bələdiyyə əraziləri və torpaqlar haqqında" Azərbaycan Respublikasının Qanunu və torpaq münasibətlərini tənzimləyən digər normativ-hüquqi aktlara uyğun olaraq mülkiyyətə və icarəyə verilir. Bələdiyyə üzvlərinin hüquqi biliklərinin az olması, qanunvericiliyi düzgün mənimsəməmələri və işə laqeyd münasibəti nəticəsində bələdiyyə torpaqlarının zəbt olunması, qanunsuz tikinti aparılması, torpaqların kateqoriyalarının qanunsuz dəyişdirilməsi faktlarına rast gəlinir. Ona görə də bələdiyyələr torpaqların mülkiyyətə verilməsi, eləcə də torpaqların icarəyə verilməsi ilə bağlı müqavilələrin bağlanması zamanı kargüzarlıq və digər qanunun tələblərinə əməl etməlidirlər.

Tədbir iştirakçılarına "Yerli özünüidarə ilə bağlı hüquqi aktlar toplusu" və "Bələdiyyələrin maliyyə hesabatlarının tərtibinə dair məsələlər toplusu" kitabları təqdim olunub.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Kərəm HƏSƏNOV**

***Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda hər il onlarla obyekt həyata vəsiqə alır. Cari ildə də bölgənin müxtəlif ünvanlarında tikinti işləri davam etdirilir. Rayon mərkəzində 2 nömrəli tam orta məktəb üçün yeni bina inşa olunur, 48 mənzilli üçmərtəbəli 24 mənzillik ictimai yaşayış binasında əsaslı təmir işləri aparılır.***

# Şərur rayonunda quruculuq tədbirləri davam etdirilir





Məktəb binasının tikintisi "Gəmiqaya" MMC-nin inşaatçılarına həvalə edilib. Zirzəmi ilə birlikdə dördmərtəbəli olan məktəb binası 900 şagird yerlikdir. İnşaatçılara yaradılmış hərtərəfli şərait binada tikinti işlərini vaxtında başa çatdırmağa imkan verib. Binanın çardağı vurulub, daxildə müxtəlif inşaat işləri həyata keçirilir. İnşaatçılar binanı yeni dərs ilinədək təhvil vermək əzmi ilə çalışır, keyfiyyət amilinə xüsusi diqqət yetirirlər. Məktəb binasında müəllim və şagirdlərin ixtiyarına geniş və işıqlı sinif otaqları, fənn laboratoriyaları, kitabxana, müəllimlər, psixoloq, şahmat və kompüter otaqları, elektron lövhəli sinif veriləcək.

Rayon mərkəzinin Heydər Əliyev prospektindəki ictimai yaşayış binasının əsaslı təmir işlərini "Cahan Holdinq" Şirkətlər İttifaqının inşaatçıları həyata keçirirlər. Binanın çardağı yenidən qurulub, divarları üzlənir, qapı və pəncərələr, elektrik xətləri dəyişdirilir.

**Xəbərlər şöbəsi**

## Dövlət proqramı uğurla icra olunur



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"na uyğun olaraq, məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin peşəkarlıq səviyyələrinin artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində kurs təşkil edilib.***

Tədbiri komitənin aparat rəhbəri Zeynal Hümbətov açaraq adıçəkilən proqramın icrası ilə bağlı qarşıda duran vəzifələrdən danışıb.

Naxçıvan Müəllimlər İnstitutunun psixoloq-müəllimi Çapay Quliyev çıxış edərək bildirib ki, məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi və metodistlərinin psixoloji biliklərə yiyələnməsi vacibdir. Uşaqların formalaşmasında mühit əsas rol oynayır. Buna görə də sağlamlıq imkanları məhdud uşaqların uşaq bağçalarına cəlb olunmasında məqsəd yaradılan şərait və mühitin təsiri ilə onların xəstəliklərinə psixoloji köməklik göstərməkdir. Metodist və tərbiyəçilər bu qəbildən olan uşaqların mühitdə özlərini sərbəst hiss etməsinə dəstək ola bilərlər. Bağça mühiti sağlamlıq imkanları məhdud uşaqların nitq qabiliyyətinin və dünyagörüşünün formalaşmasına xidmət edir. Hətta bağça şəraitindən yararlanmaqla uşaq serebral iflici və görmə qüsuru olan uşaqlar da oxuya, yaza və gələcəkdə cəmiyyətdə fəal iştirak edə bilərlər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

Sosial siyasət

# Muxtar respublikada uşaq və gənclərə qayğı diqqət mərkəzindədir



***Müstəqil ölkəmizdə həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən biri uşaq və gənclərə qayğı göstərilməsi, onların cəmiyyətin sağlam sütunu kimi hərtərəfli yetişdirilməsi istiqamətində görülən işlərdir. Böyüyən gənc nəslin artan tələbatlarının düzgün qiymətləndirilməsi, cəmiyyət quruculuğunun bütün pillələrində onlara yer verilməsi baxımından Naxçıvan Muxtar Respublikasında görülən işlər də bu istiqamətdə ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlərin mühüm bir hissəsidir.***

Sosial siyasət dövlət idarəetməsinin əsas vasitələrindən biri kimi müasir dövrdə mühüm əhəmiyyət kəsb edir. Geniş mənada, cəmiyyətdə rifahların bərabər bölgüsü, sosial qayğıya ehtiyacı olanların zəruri tələbatlarının ödənilməsi, müəyyən sosial qrupların maraqlarının təmin olunması üçün uzunmüddətli sosial investisiyaların yatırılması dövlətin mühüm funksiyası olub, son nəticədə, hər kəsin arzu etdiyi sosial dövlət modelinin yaradılmasında çox əhəmiyyətlidir. Ona görə də dövlət sosial siyasət məsələlərini daim gündəmdə saxlayaraq insanların ondan gözlədiyi təhlükəsizlik, daimi məşğulluq, təhsil və sağlamlıq, sərbəst asudə vaxt keçirmək kimi təməl sosial tələbatların ödənilməsində qarant rolunu oynayır. Xüsusən bazar iqtisadiyyatında, iqtisadi mənafelərin sərt şəkildə ön plana çıxdığı bir şəraitdə dövlətin müntəzəm həyata keçirdiyi sosial siyasət tədbirləri olmazsa, bu, bəzi məqamlarda insanlar arasında ən doğma sosial əlaqələr olan ailədaxili münasibətlərin də arxa plana keçməsinə gətirib çıxara bilər. Odur ki, cəmiyyətdə heç kimin arzu etmədiyi sosial gərginlik təzahürlərinə rast gəlinməməsi üçün dövlətin həyata keçirdiyi bütün sosial siyasət tədbirlərinin dəyərini də düzgün qiymətləndirmək lazımdır.

Cəmiyyətin sosial cəhətdən həssas qruplarından biri uşaq və gənclərdir. Uşaq və gənclərə qayğı deyərkən, bəziləri, sadəcə, uşaqların keyfiyyətli qida, gözəl geyim və sair belə tələbatlarının ödənilməsi ilə öz işini bitmiş hesab edirlər. Ancaq real həyat göstərir ki, hətta maddi cəhətdən ən yaxşı təminatı olan bəzi ailələrdə belə, uşaqların sosiallaşma meyillərinə zəif reaksiya verilməsi, onların artan ünsiyyət, dostluq qurma, təbiətlə təmasda olmaq və öz potensiallarını sübut etmək istəyinə biganəliklə yanaşılması nəticəsində gələcəyin layiqli vətəndaşı əvəzinə, sadə dillə desək, problemli insanların yetişməsi baş verir. Ona görə də mənsub olduğu ailənin statusundan asılı olmayaraq, hər bir gəncə bərabər səviyyədə diqqət göstərən dövlət siyasətinə, sözün əsl mənasında, mükəmməl gənclik yetişdirilməsi üçün ideal formul kimi baxmaq lazımdır.

Dövlətimizin uşaq və gənclərə qayğısı xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanmaqla yeridilən siyasətin mühüm bir hissəsidir. İstər ailələrin sosial müdafiəsinin gücləndirilməsi, istər təhsilin və səhiyyə xidmətlərinin səviyyəsinin yüksəldilməsi, istərsə də uşaq və gənclərin istedadlarının üzə çıxarılaraq onların xalqımızın milli sərvətinin bir hissəsinə çevrilməsi, bu mənada, hər bir azərbaycanlının dərindən düşündürür. Bu gün deyə bilərik ki, uşaq və gənclərimizin gələcəyi etibarlı əllərdədir. Onların layiqli vətəndaş kimi böyüməsi, təhsil alması, cəmiyyətdə mövqe tutması üçün dövlətimiz bütün imkanları yaradıb. Ölkəmizdə gənclərin fiziki və mənəvi inkişafından tutmuş onların faydalı məşğulluğunun təmin edilməsi və dövlət idarəçiliyi sistemində iştirakına qədər görülən bütün işlər məhz Azərbaycan gəncliyinin hərtərəfli inkişafına xidmət edir. Hələ vaxtilə ümummilli liderimiz Heydər Əliyev tərəfindən bu sahənin hüquqi bazasının yaradılması, gənclərlə işin daha da təkmilləşdirilməsi məsələləri diqqət mərkəzində saxlanılıb, ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılıb. "Dövlət gənclər siyasəti haqqında" Fərman, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Fərman, "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında" Sərəncam, "Gənc ailə" proqramı kimi mühüm dövlət sənədləri buna tutarlı misaldır.

Ulu öndərin müəyyənləşdirdiyi dövlət gənclər siyasəti hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2007-ci ilin ölkəmizdə "Gənclər ili" elan olunması, 2005-2009-cu və 2011-2015-ci illəri əhatə edən "Azərbaycan gəncliyi" dövlət proqramlarının uğurla həyata keçirilməsi, Prezident yanında Gənclər Fondunun yaradılması, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün Prezident mükafatının təsis edilməsi gənclərin hərtərəfli inkişafını stimullaşdırıb. Gənclərin inkişafı məqsədilə qəbul olunmuş "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)", təhsil alan gənclərin, gənc alim və mütəxəssislərin sosial müdafiəsinin gücləndirilməsi, ölkəmizin bütün guşələrində yaşayan gənclərin təhsil, məşğulluq, ictimai fəaliyyətlərinin, mədəniyyət və idman sahəsində imkanlarının genişləndirilməsi hazırda uğurla davam etdirilir.

Müasir Azərbaycan gəncliyinin sosial inkişafı üçün cəmiyyətimizdə kifayət qədər institusional və mədəni-intellektual baza yaradılıb. Söz yox ki, bu qədər resursun uşaq və gənclərin dünyagörüşünün formalaşması, onların ictimai həyata innovativ təsir gücünün artırılması üçün böyük rolu vardır. Ancaq unutmaq olmaz ki, qloballaşma və sürətli informasiya dövründə yaşayırıq və açıq etiraf edək ki, ideologiya, vətənə bağlılıq, Azərbaycançılıq işində qazandığımız uğurlarla yanaşı, yeni texnologiyaların tətbiqi, idman, turizm, səhiyyə və mədəniyyətin bəzi sahələrində dünya standartlarına çata bilmək üçün qarşımızda hələ xeyli işlər durur. Belə çatışmazlıqlar isə zehni ağ kağız kimi təmiz olan gəncliyi bəzən öz axarına alıb, bir anda əlimizdən apara bilər. Ancaq yaxşı ki ölkəmizdə indiyə qədər ailə-dövlət işbirliyi milli-mənəvi dəyərlərimizə sadiq gəncliyin formalaşması işində uğurlu olmuş və bu gün heç bir Azərbaycan gənci dünyanı bürüyən müxtəlif radikal cərəyanlara qoşulmaqla özünü qara siyahıya salmayıb. Dolayısı ilə görürük ki, ailəsinə, vətəninə və dövlətinə bağlı insanlar yetişdirmək iqtisadi inkişafın istənilən mərhələsində ən doğru seçim kimi özünü göstərir. Bu da, şübhəsiz, öz sosial zəmanətləri ilə həmişə ön plana çıxan dövlətimizin bu sahəyə yatırdığı sərmayənin nəticəsidir.

Naxçıvan Muxtar Respublikasında uşaq və gənclərə göstərilən dövlət qayğısı burada həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsidir. Burada uşaq və gənclərin milli ruhda tərbiyəsi, onların vətənpərvərlik hisslərinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Gənclərin potensialının qiymətləndirilməsi, yaradıcı istedadlarının vaxtında üzə çıxarılması onların gələcəkdə cəmiyyətimizdə avanqard mövqelər tutmasına indidən zəmin yaradır. Bu gün muxtar respublikamızda gənclərin sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği xüsusilə diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərmanları ilə "Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması regionumuzda gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır. Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman məktəblərinin, şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından öz müsbət nəticəsini verib. Gənclərdən boks üzrə Tayfur Əliyevin və Yenisey İmanovun, karate-do üzrə 12 yaşlı Vüsal Seyidovun, 13 yaşlı İmran Həsənovun və 16 yaşlı Sərcan Məmmədovun, 13 yaşlı cüdoçu Abbas Məmmədovun və kikboksinq üzrə Nail Hüseynovun idmandakı uğurları, Həbib Allahverdiyev, Bəhruz Quliyev, Şəmsiyyə Zalova, Ülviyyə Şirinova, Çinarə Quliyeva, Xədicə Əlizadə, Axtər Sadiqova, Eldar İbrahimov, Gülşad Quliyeva, Könül Mərdanovanın rəsm sahəsindəki qabiliyyətləri, gənc zəka sahibləri Anar Qurbanov, Təbriz Eyvazlı, Seymur Mütəllimzadə, Sabir Mirzəzadə, Aynurə İsmayılova, Kazım Kazımov, Şəhriyar Əlizadə, Orxan Həsənovun intellektual oyunlardakı məharətləri, Kənan Babayev, İsmayıl İsmayıllı, Anar Sadiqovun "Ənənəvi və innovativ tendensiyalar" adlı keçirilən müsabiqədə və Fərid Seyidov, Gülnarə Seyidova, Əziz İbrahimlinin "Maliyyə resurslarının idarə edilməsi bacarığı və onun təkmilləşdirilməsi" mövzusunda keçirilən tədbirdə fəallıqları məhz muxtar respublikamızda gəncliyin inkişafına göstərilən dövlət qayğısının bəhrəsidir.

Muxtar respublikamızda məktəblilərin, sağlamlıq imkanları məhdud uşaqların və aztəminatlı ailələrin uşaqlarının, idmançıların Ağbulaq İstirahət Mərkəzində həftəsonu istirahətlərinin təşkili, gənclərin ekoloji biliklərinin zənginləşdirilməsi məqsədilə xüsusi estetik gözəlliyi olan təbiət ərazilərinə ekoturizm marşrutları üzrə gəzintilərinin keçirilməsi, təbiət ərazilərindəki təmizlik və gülləkmə aksiyaları uşaq və gənclərin bu yöndə tərbiyəsinə mühüm təsir gücünə malikdir. Naxçıvanda mütəmadi olaraq gənclərin vətənpərvərlik tərbiyəsi istiqamətində əsgər və zabitlərlə keçirilən görüşlər, məktəblilər və gənclər arasında təşkil olunan inşa yazı müsabiqələri, Azərbaycanın milli mədəniyyətini və Naxçıvanın zəngin tarixini təbliğ edən və gənclərin intellektual səviyyəsinin yüksəldilməsi məqsədi güdən intellektual oyunlar onların gələcəkdə fəal cəmiyyət üzvü kimi yetişmələri üçün mühüm tərbiyəvi əhəmiyyətə malikdir. Bütün bunlar və sadalaya bilmədiyimiz daha nə qədər işlər Naxçıvanda böyüyüb ərsəyə çatan Azərbaycan gəncliyinə göstərilən dövlət qayğısının yalnız bir hissəsidir.

*Cəmiyyət və dövlət var olduqca insanların sosial qayğılarının davamlı olaraq həlli də gündəmdədir. Cəmiyyət isə inkişaf edir. İnkişaf edən cəmiyyətdə artan tələbatların ödənilməsi, hamının həmrəy olub bir hədəfə doğru inamla addımlaması üçün ən ali idarəetmə institutu olan dövlət dəstəyinə də həmişə ehtiyac olacaq.*

**Əli CABBAROV**

# 133-cü teatr mövsümü başa çatıb

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı yazıçı-dramaturq Həmid Arzulunun "Əlincə qalası" tarixi dramı əsasında hazırlanmış tamaşa ilə 133-cü teatr mövsümünü başa çatdırıb.***





Tamaşadan əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı, Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev çıxış edərək Naxçıvan teatrının keçdiyi şərəfli inkişaf yolundan danışıb, bu sənət ocağının tamaşaçıların maariflənməsindəki xidmətlərindən, onların estetik zövqünün formalaşmasında, işıqlı və mütərəqqi ideyaların yayılmasında gördüyü işlərdən söhbət açıb. Qeyd olunub ki, ötən mövsümdə hazırlanmış "Nadanlıq və ya üç telefon zəngi", "Qurtuluş dastanı", "Varlı qadın" və başqa tamaşalar ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Teatr muxtar respublikanın müxtəlif rayonlarında "Koroğlunun Çənlibelə qayıdışı", "Araz sahilində doğan Günəş", "Qurtuluş dastanı" kimi səhnə əsərlərini tamaşaçılara təqdim edib. Bu əsərlərdə dövlətçilik ideyalarının təbliği, Vətənin müstəqilliyə qovuşması kimi amillər əksini tapıb.

Vurğulanıb ki, teatr repertuar zənginliyini daim diqqət mərkəzində saxlayır, tarixi mövzuda yazılmış əsərlərin səhnələşdirilməsinə böyük önəm verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il fevral ayının 11-də imzaladığı "Culfa rayonundakı Əlincəqala tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncama əsasən, iyun ayının 17-də "Əlincəqala" tarixi abidəsinin və muzeyinin açılışı olub. Sərəncama uyğun olaraq, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı Həmid Arzulunun "Əlincə qalası" tarixi dramına yenidən müraciət edib. Bu il teatr görkəmli yazıçı-dramaturqumuz Nəriman Nərimanovun "Nadir şah" tarixi dramını da səhnəyə qoyacaqdır.

Sonra Həmid Arzulunun "Əlincə qalası" tarixi dramı əsasında hazırlanmış tamaşa göstərilib. Tamaşada uzun illər Əmir Teymura qarşı mübarizə aparan Əlincəqalanın müdafiəsi canlandırılır, qala müdafiəçilərinin qəhrəmanlığı, xalqın qurub-yaratmaq əzmi, düşmən mühasirəsində olmasına baxmayaraq, mətinliyini və torpaq sevgisini yaşadan insanların həyat tərzi tamaşaçıya təqdim olunur. Tamaşada xalqın qəhrəman oğulları Əmir Altun, Rəşid, Məlik Tahir, Əhədin insanları vətənin müdafiəsi uğrunda səfərbər etməsi ilə yanaşı, Azərbaycan qadınının hünər və cəsarəti, sədaqəti, ailə və cəmiyyətdə nüfuzu Gilan ana obrazında tamaşaçıya təqdim edilir. Əsər Əmir Teymurun qala müdafiəçilərinin hünər və qəhrəmanlığı qarşısında məğlub olması ilə başa çatır.

"Əlincə qalası" tamaşasının quruluşçu rejissoru Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur. Tamaşada Azərbaycan Respublikasının Xalq artistləri Rza Xudiyev (Əmir Teymur), Rövşən Hüseynov (Omba Qulamhüseyn), Şirzad Abutalıbov (Təlxək), Azərbaycan Respublikasının Əməkdar artistləri Əbülfəz İmanov (Qasım), Xəlil Hüseynov (Bəbir), Bəhruz Haqverdiyev (Murzo), Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşıyev (Rəşid), aktyorlar Elnur Rzayev (Əhəd), Şölə Novruzbəyli (Məlikə), Nazlı Hüseynquliyeva (Gilan ana), Nurbəniz Niftəliyeva (Nərgiz), Səyyad Məmmədov (Əmir Altun), Nəsimi Məmmədzadə (Məlik Tahir), Zakir Fətəliyev (İlyas Xoca), Cəbrayıl Nəbiyev (Cəllad), Anar Eyvazov (Qapıçı) və başqalarının ifaları maraqla qarşılanıb. Kütləvi səhnələrdə "Təməl" teatr studiyasının tələbələri iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## Futbolçular Ağbulaq İstirahət Mərkəzində istirahət ediblər





***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi və Futbol Federasiyasının birgə təşkilatçılığı ilə yeniyetmə futbolçuların Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunub. 29-30 iyun tarixlərində mərkəz 45 futbolçunu qəbul edib.***

Ağbulaq İstirahət Mərkəzində futbolçuları mərkəzin və təşkilatçı qurumların əməkdaşları qarşılayıblar. İdmançılara məlumat verilərək bildirilib ki, Ağbulaq İstirahət Mərkəzi Naxçıvanda kənd turizminin inkişaf etdirildiyi ən gözəl məkanlardan biridir. 2013-cü ildə istifadəyə verilən mərkəzin ərazisi 3,5 hektardır və 3 yaşayış korpusundan, 1 yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə, 38 otaq var.

Nahar yeməyindən sonra proqrama uyğun olaraq futbolçular müxtəlif stolüstü oyunlarda mübarizə aparıblar. Şahmat, dama kimi zehni oyunların ardınca "Ağbulaq" bulağına yürüş keçirilib. Sonra vətənpərvərlik mövzusunda "Nuh yurdu – Naxçıvan" sənədli filminin nümayişi futbolçularda xoş təəssüratlar yaradıb.

Növbəti gün futbolçular müxtəlif idman yarışlarında qüvvələrini sınayıblar. Mərkəzin stadionunda mini-futbol yarışı keçirilib. Nahar yeməyinin ardınca futbolçular üçün əyləncəli saat təşkil edilib. Əyləncəli saatda yeniyetmə idmançılara bir-birindən xoş musiqi nömrələri təqdim olunub. Dünən axşam saatlarında isə federasiyanın yetirmələrinin Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahətinə yekun vurulub və onlar Naxçıvan şəhərinə qayıdıblar.

İkigünlük istirahət mərkəzdə olan idmançılarda razılıq doğurub. Onların təəssüratlarını öyrəndik. Mirhüseyn Seyidov bildirdi ki, onların istirahəti proqrama uyğun olaraq təşkil edilmişdi. İki gün ərzində tədbirlərə qatılıblar və bu da futbolçuların istirahətlərinin səmərəli təşkil olunmasında mühüm rol oynayıb.

Pərviz Oruclu da həmkarı kimi futbola çox maraqlıdır. Bir müddətdir, bu idman növü ilə məşğul olan yeniyetmə futbolçu istirahət vaxtı fürsətdən istifadə edib televiziyadan oyunları da izləyib. O, istirahət mərkəzində yaradılmış hərtərəfli şəraitə görə minnətdarlığını bildirdi.

Qeyd edək ki, cari il mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunur.

## Fotomüsabiqənin qalibləri mükafatlandırılıb



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Rəssamlar Birliyinin təşkilatçılığı ilə "Naxçıvanın turizm imkanları" mövzusunda fotomüsabiqə keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək bildirib ki, zəngin mədəni-tarixi irsə və əlverişli şəraitə malik olan Naxçıvan Muxtar Respublikasında turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Hazırda muxtar respublikada iqtisadi-sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsi formalaşdırılıb. Turizmin inkişafında gənclərin üzərinə böyük məsuliyyət düşür.

Sonra Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev çıxış ediblər. Qeyd olunub ki, son illərdə muxtar respublikada digər sahələr kimi, turizmin inkişafı sahəsində görülən işlər də öz bəhrəsini verir. Muxtar respublikaya gələn turistlərin sayı hər il daha da artır. Fotomüsabiqənin keçirilməsində məqsəd muxtar respublikanın turizm imkanlarının təbliğ olunması, turizm imkanlarının təbliğində gənclərin fəallığının artırılması və istedadlı gənclərin üzə çıxarılmasıdır.

Sonda müsabiqədə ilk üç yeri tutan gənclər diplom və hədiyyələrlə mükafatlandırılıb.

**Xəbərlər şöbəsi**

## İnsanların doğulduğu aya görə seçdikləri *idman növləri*

***İdmanın insan həyatında mühüm rol oynadığını yaxşı bilirik. Bu sahəyə istər peşəkar, istərsə də hobbi kimi yanaşanlar heç vaxt peşmançılıq hissi keçirməyiblər. Ancaq bir məsələni xüsusi vurğulamaq istəyirik ki, idman insan sağlamlığına müsbət təsir göstərdiyi kimi, onun psixoloji durumunu da tənzimləyir. Bu sahə ilə məşğul olanlar və olmaq istəyənlər hansı növə yönələcəklərini, adətən, öz bədən quruluşlarına, həmçinin maraqlarına görə seçirlər. Bəs insan doğulduğu aya görə hansı idman növünü seçə bilər? Aparılan araşdırmalardan sonra maraqlı nüanslar ortaya çıxıb...***

Yanvar ayında doğulan insanların yaş fərqlərinə görə seçdikləri idman növləri də fərqlidir. Bu ayda dünyaya göz açanlar bitmək-tükənmək bilməyən enerjiyə sahibdirlər. Məhz buna görə alimlər yanvar ayını "döyüşçü" ayı adlandırırlar. Seçilən idman növləri isə fərqlidir. Məsələn, 14-19 yaş arası gənclər daha çox fərdi idman növlərinə – taekvandoya, güləşə üstünlük verirlər. Nisbətən yaşa dolmuş insanlar isə komanda idmanlarında müvəffəqiyyətə nail olurlar. Yəni yanvar ayında doğulan və idmanla məşğul olan insanların 62 faizi idarəçilik bacarığına malik olur və komanda idmanlarına üstünlük verirlər.

Fevral ayının soyuq olması bu ayda doğulan insanların su idman növlərinə olan marağını azaltmır. Bəzən bu ayda doğulan insanları soyuqqanlı hesab edirlər. Lakin onların suya olan marağı alimlərin də diqqətini cəlb edib. Aparılan araşdırmalardan sonra məlum olub ki, bu ayda doğulan və idmanla məşğul olan, bu sahəyə maraq göstərən insanların 50 faizdən çoxu üzgüçülüyə, buz konkisinə, rəqsə, gimnastikaya və aerobikaya maraqlıdır.

Mart ayında dünyaya göz açan insanlar daha çox əyləncəni sevən təbiətə malikdirlər. Məhz buna görə onlar təbiətlə təması olan idman növlərinə maraq göstərirlər. Sıx meşədə qaçmaq, velosiped sürmək, avtoyarışlar və üzgüçülük bu ayda doğulanların sevimli idman növləridir.

Aprel ayında təbiətin oyanması insanların əhval-ruhiyyəsinə də təsir edir. Bu ayda doğulan insanlar sürətli və hərəkətli idman növlərindən zövq alırlar. Maraqlısı odur ki, zövqü onlar yalnız bu idman növlərini izləməkdə görürlər. Məsələn, tennis, aerobika, rəqs növləri bu ayda doğulan insanların xüsusi seçimidir. Həmçinin aprel ayında doğulanlar ağır, lakin hərəkətli olan kikboksinqlə, ağır atletika ilə məşğul olmağa üstünlük verirlər.

May ayında doğulan insanlar elm və təhsilə üstünlük verdiklərindən daha çox zəka sərf edilən idman növlərinə maraq göstərirlər. Onlar üçün şahmat bu idman növlərinin önündə gəlir. Maraqlısı odur ki, onlar həmçinin güc tələb edən güləşlə məşğul olmağı da sevirlər.

İsti yay aylarında su idman növləri daha çox maraq kəsb etdiyi halda, iyun ayında dünyaya göz açan insanlar daha çox soyuq havada məşğul olunan növlərə maraq göstərirlər. Onlar üçün xokkey, soyuq havada dağda xizək sürmək daha çox maraq kəsb edir. Həmçinin bu ayda doğulan insanlar hobbi kimi atıcılıq və ekstrem növlərlə məşğul olmağı sevirlər.

Yay aylarında dünyaya göz açan insanların ilk növbədəki seçimi kollektiv idman növləridir. Eyni zamanda su elementlərini sevən iyul ayının insanları avarçəkmə, üzmək, qaçış növlərinə daha çox maraq göstərirlər. Araşdırmalar göstərir ki, iyul ayında doğulan insanların 60 faizdən çoxu futbol, basketbol və voleybolla maraqlanmağa üstünlük verirlər.

Avqust ayında da doğulan insanlar xarakter baxımından iyul ayında dünyaya gələn insanlara oxşayırlar. Onların da seçimi məhz kollektiv növlərdir. Kollektiv növlərlə məşğul olmağı üstün tutan bu insanlar daha çox fərdi növün idman yarışlarına baxmağı seçirlər. Məsələn, güləş, tennis, cüdo.

Bir az nizamlı, bir az çox şeyi bəyənməyən, bir az da formada qalmağı sevən sentyabr ayında doğulan insanlar daha çox zal idmanlarına üstünlük verirlər. Məsələn, araşdırmalar göstərir ki, bu insanlar üçün gimnastika, yüngül atletika bütün idman növlərindən yüksəkdə durur. Həmçinin tennis (stolüstü və örtülü manej), fitnes də bu ayda doğulanların sevimli idman növləridir.

Oktyabr ayında doğulan insanların idmana marağı hədsiz dərəcədə çox olsa da, bir qədər tənbəldirlər. Bütün idman növlərini sevən bu insanlar nədənsə idman etməyə vaxt ayıra bilmirlər. Lakin kollektiv idman növlərindən futbol və basketbolu mütəmadi olmasa da, arada oynamağı sevirlər.

Rəqabəti sevən və daim qalib gəlmək istəyən noyabr ayında doğulan insanlarda bir xüsusiyyət diqqətdən yayınmır. Onlar məğlub olduqları halda belə, sevdikləri idman növlərini tərk etmirlər. Bu ayda doğulan insanlar fərdi növlərə daha çox "bel" bağlayırlar. Boks, karate, qaydasız döyüş bu ayda doğulanlara xüsusi zövq verir.

İlin son ayında dünyaya gələnlər bir qədər pessimist fikirli olurlar. Buna baxmayaraq, onlar sürətli və ritmik idman növlərini sevirlər. Məsələn, bu ayda doğulan və idmana maraq göstərən insanların yarıdan çoxu yüngül atletika, gimnastika, futbol, voleybolla məşğul olmağa üstünlük verirlər.

**✍ Ceyhun MƏMMƏDOV**

## "...Qalarda-qoparda yerim *Günortac!*"...

Hər kəsi sirli təbiəti ilə riqqətə gətirən Naxçıvan torpağı həm də möcüzələrlə doludur. Hər daşı, qayası özündə qədim bir tarixi mühafizə edir bu məkanın. Naxçıvan küləklərinin zümzüməsi, qayalarının məğrurluğu, torpağının bərəkəti, insanlarının ləyaqəti dillər əzbəridir.

Bu torpağın daşı-qayası min cəvahiratdan daha qiymətlidir bizim üçün. Qarlı Qapıcığın, məğrur Əlincənin, əsrarəngiz Haçadağın sinəsində böyüdüb bizi Naxçıvan.

Günəşin öz şəfəqləri ilə daha çox ziyaya qərq etmək istədiyi Naxçıvan torpağında yaşayan insanların mənəviyyatı ilə birlikdə əqli keyfiyyətləri də parlaqdır. Bəlkə də, hər sahədə parlamağı Günəşdən öyrənib bu mistik diyarın sakinləri. Naxçıvanın möcuzəvi təbiəti daim ruhumuzu oxşayır, könlümüzü riqqətə gətirir. Bu diyarı gəzib dolaşdıqca hər addımda yeni bir əfsanə, yeni bir hekayə, yeni bir tarix çıxır qarşımıza...

Belə məqamlardan olan, bu ünvanı tanıyanları heyrətdə qoyan Kəngərli rayonu ərazisində Çalxandağın ətəyində gizlənən Günorta daşının (Günortac) qəribə, bir o qədər də maraqlı tarixçəsini oxucularla bölüşmək istəyirəm.

1500 metr hündürlüyü olan bu qaya günortaya qədər kölgəyə bürünür. Düz günorta vaxtı isə kölgə tamamilə çəkilir. Ətrafdakı Təzəkənd, Çalxanqala, Xıncab və Sust kəndlərinin camaatı ta qədimdən ilin bütün fəsillərində əkin-biçin və başqa təsərrüfat işləri zamanı günortanı səhvsiz göstərən Günorta daşından "saat" kimi istifadə etmişlər.

Bu barədə Azərbaycanşünas-alim, professor Mirəli Seyidov Bartolda istinadən yazır: "Günortac günün doğduğu uca zirvə deməkdir". Mirəli Seyidovun gəldiyi nəticələrdən biri də budur: "Günortac" yer adının qoyulması əski oğuzların mifik görüşlər sistemi və bununla əlaqədar ailə və qəbilə, sonralar dövlət kimi faktorlarla bağlıdır". Göründüyü kimi, tədqiqatçılar da bu fikri dəstəkləyərək "Kitabi-Dədə Qorqud" dastanında adıçəkilən "Günortac"la həmin bu Günorta daşının bilavasitə bağlı olduğunu düşünürlər.

Qeyd etdiyimiz kimi "Günortac" toponimi "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanı, Təpəgözün gözünü çıxaran Basatın yurdu kimi tanınır. Deməli, "Günortac" həm də Oğuz elinin oturaq yurdudur, vətənidir. Bu fikir Basatın Təpəgözə verdiyi cavabla da bir daha təsdiqlənir. Bu baxımdan "Günortac" əsas kosmik istiqamət olmaqla yanaşı, həm də oğuzların yurdu, Vətəni anlamında başa düşülməlidir.

Qayaya baxdıqda sanki qayalarda bu sözlərin əks-sədasını duyuram: Təpəgöz Basatdan soruşur: "Qalarda-qoparda yigid, yerin nə yerdir?" Basat cavab verir: "...Qalarda-qoparda yerim Günortac!"...

**✍ Nərgiz İSMAYILOVA**

## Karateçilərimiz yarışlardan medallarla qayıdıblar

***Bakı şəhərində VKC növləri üzrə Azərbaycan Respublikasının Milli Qəhrəmanı Murad Mirzəyevin xatirəsinə həsr olunmuş açıq turnir keçirilib. Azərbaycan Karate Federasiyasının təşkil etdiyi turnirdə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 5 idmançısı mübarizə aparıb.***

İdmançılarımız turnirdə uğurlu nəticə əldə edərək 3 medal qazanıblar. Belə ki, ən uğurlu nəticəni 14-15 yaş qrupunda, 50 kiloqram çəki dərəcəsində mübarizə aparan Sərcan Məmmədov göstərib. O, yalnız final görüşündə məğlub olaraq turnirin gümüş medalçısı olub. 10-11 yaş qrupunda, 30 kiloqram çəki dərəcəsində tatamiyə çıxan Vüsal Seyidov və bu yaş qrupunda 35 kiloqram çəki dərəcəsində iştirak edən Məhəmməd Şıxəlili üçüncü yerə çıxıblar.

Bu turnirlə yanaşı, Bakı şəhərində Azərbaycan Karate Federasiyasının "Arpaçay" Karate Klubunun birinci açıq birinciliyi də keçirilib. Bu birincilikdə də Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 5 idmançısı iştirak edib. Bunlardan 12-13 yaş qrupunda, 33 kiloqram çəki dərəcəsində mübarizə aparan İmran Həsənov bütün rəqiblərinə qalib gələrək birinciliyin baş mükafatını qazanıb. 10-11 yaş qrupunda, 30 kiloqram çəki dərəcəsində isə Vüsal Seyidov üçüncü olub.

Sonda hər iki yarışda yer tutan idmançılarımıza diplom və medallar təqdim olunub.

**Xəbərlər şöbəsi**


**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 503